

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (21.760)

*25 may 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## 2017-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2017-ci ilin yanvar-aprel aylarında 687 milyon 332 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz artaraq 1528,8 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 315 milyon 220 min 500 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 279 milyon 540 min manat həcmində investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyanın 260 milyon 757 min manatı və ya 93,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin həcmi 16 milyon 414 min manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin həcmi ilə müqayisədə 2,4 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin həcmi 13 milyon 357 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

* * *

2017-ci ilin yanvar-aprel aylarında 36 milyon 919 min 500 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 2,8 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 7447,3 ton ət, 24775,8 ton süd istehsal edilmiş, bir il öncəyə nisbətdə ət istehsalı 2,4 faiz, süd istehsalı 1,8 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 483 milyon 601 min 500 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,1 faiz yüksələrək 1075,6 manat təşkil etmişdir.

* * *

2017-ci ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 413,9 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 may 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 58684-ə çatmışdır ki, bunun da 50133-ü və ya 85,4 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-aprel ayları ərzində açılmış 14725 bank hesabının 14686-sı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 may 2017-ci il tarixə 1241-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada 102 milyon 673 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 97 milyon 921 min 400 ABŞ dolları, idxalın həcmi 59,6 faiz azalaraq 4 milyon 752 min 400 ABŞ dolları təşkil etmiş, 93 milyon 169 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 7 milyon manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 1 milyon 597 min manatı və yaxud 22,8 faizi qısamüddətli, 5 milyon 403 min manatı və yaxud 77,2 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 2 milyon 335 min 400 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 31,6 faiz çoxdur.

* * *

2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikaya 129 min 693 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz və ya 6207 nəfər çoxdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## İsrail səfiri Babək və Culfa rayonlarının ərazilərindəki tarixi abidələrlə tanış olub





***Xəbər verdiyimiz kimi, mayın 23-də İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Diplomat muxtar respublikaya səfəri çərçivəsində Naxçıvanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub.***

Mayın 24-də Dan Stav "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanış olub. Tanışlıq zamanı səfirə Əshabi-Kəhf barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, ziyarətgahın adı ərəb dilindən tərcümədə "mağara sahibləri" mənasını verir. Müqəddəs "Qurani-Kərim"də "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmalarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapır. Adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilir. Ancaq son dövrlərdə aparılan araşdırmalar da sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Darıdağ Arsenli Su Müalicəxanası ilə tanış olan qonağa məlumat verilib ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan bu şəfa ocağı bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Müalicə vannalarına gələn suyun temperaturu müsbət 37 dərəcədən 39 dərəcəyə qədərdir. Müalicə seanslarının müddətləri də fərqlidir. 2005-ci ildə regionların sosial-iqtisadi inkişafı dövlət proqramı əsasında beynəlxalq standartlara cavab verə bilən müalicəxana korpusu inşa olunub. Darıdağ ərazisində hazırda 2 yeni müalicəxana korpusundan istifadə edilir. Korpuslarda tibbi yardım göstərməyə geniş şərait və imkanlar vardır. Burada 1 saat ərzində 25-30 xəstə qəbul etmək mümkündür.

Culfa rayonunun ərazisində yerləşən Gülüstan türbəsi ilə tanışlıq zamanı qonağa məlumat verilib ki, dünya əhəmiyyətli Gülüstan türbəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən elmi və tarixi əsaslarla bərpa olunub. Gülüstan türbəsinin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilib, abidənin orijinallığı qorunub saxlanıb.

Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşən Xanəgah abidə kompleksində bildirilib ki, Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan bu abidə XII-XV əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Möminə xatın türbəsinin elementlərindən istifadə olunub. Hürufilik təliminin banilərindən olan Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn ediblər. Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olub, tarixin müxtəlif dövrlərində isə həm də elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirib.

Sonra səfir "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi ilə də tanış olub. Məlumat verilib ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir.

Qeyd olunub ki, bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Bu gün Əlincəqalanın zirvəsində Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, dövlətçiliyinin rəmzi olan üçrəngli bayrağımız dalğalanır.

Qeyd edək ki, İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stavın muxtar respublikaya səfəri bu gün başa çatır. "Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratları barədə danışan səfir deyib: "Azərbaycanın çox böyük əhəmiyyətə malik bölgəsi olan Naxçıvan Muxtar Respublikasında gördüklərim məndə xoş təəssürat oyatdı. Xüsusilə də səhiyyə sisteminin müasir avadanlıqlarla təmin olunması, muxtar respublikanın ərazisində müalicəvi suların mövcudluğu Naxçıvanın yüksək inkişafının və turizm potensialının göstəricisidir".

Dan Stav Naxçıvan Muxtar Respublikasına səfərinin məqsədinin İsrail və Azərbaycan arasında ikitərəfli münasibətlər çərçivəsində muxtar respublika ilə əlaqələrin inkişaf etdirilməsi olduğunu qeyd edib. Bu məqsədlə Naxçıvanda bir sıra sahələrlə tanış olduğunu bildirən səfir deyib ki, bu gün muxtar respublika ilə İsrail arasında səhiyyə, kənd təsərrüfatı və təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanlar var.

Naxçıvanda İsrail şirkətləri ilə gələcək iqtisadi əməkdaşlıq barədə müzakirələr apardığını da qeyd edən Dan Stav İsraillə Naxçıvan Muxtar Respublikası arasında güclü iqtisadi əlaqələrin qurulacağına ümidvar olduğunu bildirib.

**Tural AĞAYEV**

## 28 May – Respublika Günü qeyd olunub



*Naxçıvan Dövlət Universitetində 28 May – Respublika Günü münasibətilə elmi-praktik konfrans keçirilib.*

Universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov tədbiri açaraq 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik respublika olduğunu, xalqımızın tarixində mühüm rol oynadığını diqqətə çatdırıb. Belə ki, demokratik respublika dövründə həyata keçirilən islahatlar müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

"Milli dövlətçiliyin bərpası – Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda məruzə ilə çıxış edən ali təhsil ocağının Ümumi tarix kafedrasının müəllimi, doktorant Arzu Abdullayev bildirib ki, 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası 1918-ci ildə yaradılan Xalq Cümhuriyyətinin varisidir.

Qeyd edilib ki, Ermənistanın ölkəmizə qarşı apardığı təcavüzkar siyasət nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasına baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İqtisad fakültəsinin dekan müavini, dosent Əşrəf Ələkbərov "Müstəqilliyimizin bərpasından sonra Azərbaycanın iqtisadi inkişafı" mövzusunda məruzəsində qeyd edib ki, dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa müddət ərzində ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı təmin olunub. Respublikamız dünya ölkələri sırasında layiqli yerini tutub. 1994-cü il sentyabrın 20-də ulu öndərimizin gərgin əməyinin və qətiyyətinin nəticəsi olaraq "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının əsası qoyulub və müqavilə ölkəmizin tarixində yeni dövr açaraq dinamik inkişafın təməl prinsiplərindən birinə çevrilib.

**Nərmin CABBAROVA**

Jurnalistin qeydləri

# Bu gün kərəntidən yapışmayanlar sabah tüfəngdən də yapışmayacaq

*Torpaq halallıq, torpaq namus, torpaq mübarizə deməkdir. Elə tarixən dünyada baş verən qanlı-qadalı müharibələr, bu müharibələr hesabına tökülən insan qanları daha çox torpaq uğrunda olmayıbmı?*

Atalarımızın bununla bağlı çox müdrik kəlamları var. Onlardan birini xatırlamaq yerinə düşər: torpaqdan pay olmaz. Məhz ona görə bu müqəddəs neməti xalqımız həmişə namus, qeyrət və mübarizə rəmzi kimi qəbul edib, ərənlərimiz torpaqlarımız uğrunda mübarizələrdə şəhidlik zirvəsinə ucalıblar. Bu gün halal torpağımızı qorumaq hər bir gəncin qarşısında duran ən şərəfli vəzifədir. Təbii ki, torpağı qorumaq heç də onu hasarlamaq demək deyil. Torpağı qorumaq həm də onu əkib-becərməkdir. Dədəmiz Qorqud demişkən: "Torpağı əkmirsənsə, qorumağına, qorumursansa, əkməyinə dəyməz". Unutmaq olmaz ki, torpaq ona baş əyəni xan edər, ağa edər. Torpaq onu öldürəni dirildər. Sən torpağa tər versən, o da sənə borclu qalmaz, qarşılığında zər verər...

...İllərdir ki, Naxçıvanda kəndli torpağının əsl sahibinə çevrilib. Ona torpağını əkib-becərmək üçün hər cür şərait yaradılıb. Torpaqlar rayonlaşıb, harada nə əkmək lazım olduğu, hansı mütərəqqi metodlardan istifadə etməyin yolları kəndliyə öyrədilir. Torpaq mülkiyyətçilərinin texnikası, gübrəsi, suyu, məhsuldar toxumu, əldə etdiyi məhsulu bazara çıxarmaq imkanları var... Bu sahədə, demək olar ki, əkin-biçinlə məşğul olan kəndlinin qarşısında heç bir maneə yoxdur. Çünki müasir kənddə yaşayır. Yaşadığı ünvanda rastlaşdığı hər hansı çətinliyi vaxt itirmədən aradan qaldırmaq imkanı var. Səhiyyə məntəqəsi, kənd və xidmət mərkəzləri, poçt şöbəsi bu ünvanlara şəhər rahatlığı və müasir xidmət anlayışı gətirib. Yəni bir sənəd dalına düşüb gününün çoxunu rayon mərkəzində, şəhərdə keçirmir. Lazım olanda dövlət səyyar xidmət maşınını onun ayağına göndərir. Əlqərəz, kəndli vaxt itkisinə yol vermir. Övladları hər cür şəraiti olan məktəblərdə oxuyur. Kəndlər tamamilə qazlaşdırılıb, telefonlaşdırılıb, daimi elektrik enerjisi və sürətli internetlə də təmin olunub. Bu gün Naxçıvanın istənilən kəndində dünyanın istənilən nöqtəsi ilə rahat əlaqə yaradırsan. İndi şəhərimizlə kəndlərimiz arasında heç bir fərq yoxdur. Rahat və abad yollar rayon mərkəzinə və Naxçıvan şəhərinə qısa müddətdə çatmağa imkan verir. Bir sözlə, dövlətimiz hər bir yaşayış məntəqəsində, bu istər Naxçıvan şəhərində olsun, istərsə də dəniz səviyyəsindən iki-üç min metr yüksəklikdə yerləşən kəndlərdə olsun, əhalinin rahat yaşayışı üçün mümkün tədbirləri həyata keçirib və hazırda keçirməkdədir. Kəndlərdə yaşayan insanlara bircə o qalır ki, onlara paylanmış torpaqlardan səmərəli istifadə etsinlər. Torpağı özlərinin daimi iş yerinə, halal qazanc mənbəyinə çevirsinlər. Yalnız bu halda kənd adamı iqtisadiyyatımızın inkişafına öz töhfəsini vermiş olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxışlarının birində



bu məsələnin vacibliyinə toxunaraq demişdir ki, ***"Dövlətimiz məktəb tikintisində şəhərlə kəndə fərq qoymur. Kəndlərdə tikilən bu məktəblər şəhərdə inşa edilən məktəblərdən heç də geri qalmır. Dövlətimiz bunu ona görə edir ki, siz burada rahat yaşayasınız, uşaqlarınız yaxşı oxusun, müəllimlərimiz yaxşı şəraitdə dərs keçsin, torpaqlardan səmərəli istifadə etsin, torpağı boş saxlamasın. Torpağın boş saxlanması bizim ümumi büdcəmizə, ölkəmizə vurulan ziyan deməkdir"***.

Gündəlik olaraq "Şərq qapısı" qəzetini oxuyuram. Qəzet səhifələrində tez-tez muxtar respublikada fəaliyyət göstərən istehsal və emal müəssisələri, fərdi və fermer-kəndli təsərrüfatları haqqında maraqlı yazılara rast gəlirəm. Müxbir işlədiyim vaxtlarda belə təsərrüfatlarda özüm də çox olmuşam. Torpaq mülkiyyətçiləri ilə görüşmüşəm. Söhbətlərini dinləmişəm. Xüsusilə Kəngərli rayonunun Çalxanqala və Babək rayonunun Nehrəm kəndlərində görüşdüyüm zəhmət adamları məndə onlara həsəd, dövlətimizə minnətdarlıq, gələcəyimizə ümid, sevinc və fərəhlə baxmaq hissi yaratmışdı. Ürəyimdə "əhsən" demişdim belə təsərrüfat sahiblərinə. Çünki onlar təkcə torpaq əkmirlər, həm də maldarlıqla, heyvandarlıqla, arıçılıqla, meyvəçiliklə, quşçuluqla məşğul olurlar. Belə təsərrüfatların rəhbərləri öz yaşayışları ilə bərabər, bir neçə qohum-əqrəbasını, yaxın qonşularını da təsərrüfata cəlb ediblər. Onlar torpaqdan güc ala-ala bu qiymətli sərvətdən öz güzəranları və bazarımızın bol yerli məhsulla təminatı üçün istifadə edirlər (Növbəti yazılarım həmin təsərrüfat sahiblərinə həsr olunacaq). Bir sözlə, torpaq insanlara yaxşı yaşayış tərzi, yüksək məişət şəraiti, sağlam həyat, yaxşı mənada nə lazımdırsa, onu verir. Çünki torpaq halallıq sevir. Bəs, görəsən, bu gün bəzi gənclərimiz bu qiymətli sərvətin nələrə qadir olduğunu bilirlərmi?



Yuxarıda da qeyd etdiyimiz kimi, kənd adamı ona verilən torpaqdan istəyirsə əkinçilik, istəyirsə meyvəçilik və üzümçülük, istəyirsə də heyvandarlıq üçün istifadə edir, məhsul bolluğu yaradır, daxili bazarın tələbatına töhfəsini verir, ailə büdcəsini artırır. Bu işdə ona öz ailəsi yaxından kömək edir. Artıq bu gün kəndli-fermer və ailə təsərrüfatlarının sayı artır. Bu isə o deməkdir ki, torpaqlarımızdan bir neçə ailə birlikdə istifadə etmək qərarına gəlib. Muxtar respublikamızda belə təsərrüfatlar çoxdur. Açıq etiraf edək ki, vaxtilə kənddə yaşamaq istəməyib, gözəl təbiəti, saf havası olan doğma el-obadan uzaq düşüb şəhərə üz tutan və indi kəndə qayıdıb torpaqdan yapışan gənclərimiz də az deyil. Onlar sahibkar kimi bir profil üzrə yox, bir neçə kənd təsərrüfatı sahəsi üzrə çalışırlar. Əbəs yerə deməyiblər ki, kənddə yaşayan adam bütün kənd işlərini bacarmalıdır. Bir qədər araşdırma aparsaq, görərik ki, muxtar respublikanın kəndlərində belələri saysız-hesabsızdır. İllər öncə mağazalarda növbəsinə dayandığımız kərə yağını belə, istehsal edən torpaq mülkiyyətçilərimiz, sahibkarlarımız var. Heyvandarlıqla məşğul olan belələri onlara verilmiş pay torpaqlarından məhz heyvandarlığın inkişafı üçün istifadə edirlər. Son illərdə torpaq mülkiyyətçilərinin meyvəçiliyə, üzümçülüyə də marağı xeyli artıb.

Gəlin görək, doğma kəndlərində qalıb əkin-biçinlə, təsərrüfatla məşğul olanlar azmı gəlir əldə edirlər? Əksinə, onların qazancı bol, ruzisi halaldır. İstehsal etdiyi məhsulun– balın, pendirin, südün, ətin, yumurtanın, kərənin, yağın, almanın, cəvizin, heyvanın, üzümün, söz vaxtına çəkər, göycənin müştərisi qapısının ağzındadır. İstəsə, bir qəpik rüsum vermədən Naxçıvan şəhərindəki Mərkəzi bazarda da sata bilər. Bu yerdə bir məsələni vurğulayım ki, kənd təsərrüfatı məhsullarının satış yarmarkası bu işə öz töhfəsini verir. Bu tədbir bazarlarımıza "alan da razı, satan da razı, qazanan hamımız" mədəniyyəti gətirib. Deməli, sadəcə, qalır zəhmətə qatlaşmaq.

Bu gün yaşadığımız cəmiyyətdə torpağı yaxşı əkib-becərən, maldarlıqla məşğul olan gənc torpaq mülkiyyətçiləri nə qədər çox olsa da, onlara yenə ehtiyacımız var. Elə torpaq mülkiyyətçiləri var ki, onlar işləri ilə ad qazanır, bir alimin, məmurun, müəllimin, həkimin vətəninə verə bildiyini, hələ, bəlkə də, ondan da artıq xeyri verir ölkəsinə.

Bu yaxınlarda Naxçıvan Dövlət Televiziyasında Ordubad rayonunun Bist kənd tam orta məktəbində işləyən Aybəniz Vəliyevanın dediklərini olduğu kimi oxucularımıza çatdırıram: "Gənclərimizi mən kəndlərə çağırıram. Ana torpaqlarına çağırıram. Böyüdükləri torpaqlara çağırıram. Kənddə yaşamaq o demək deyil ki, sən mədəniyyətdən uzaqsan, kənddə yaşamaq o demək deyil ki, sən geridə qalmısan. Xeyr, şükür, dövlətimiz kəndlərimizə qaz çəkib, işıqlarımız davamlı olaraq yanır... Kəndin şəhərdən heç bir fərqi yoxdur. Mən kənddə yaşayan bir müəlliməm. Ailəmiz ziyalı ailəsidir. Uşaqlarımın ikisi müəllim işləyir, biri tibb təhsili alır. Yoldaşım da müəllimdir. Amma biz boş vaxtlarımızda təsərrüfatla məşğul oluruq".

Fikrimcə, gənclərimizi torpaqlardan səmərəli istifadə etməyə təşviq etməliyik. Bu işdə məktəblərimizin də üzərinə böyük vəzifələr düşür. Tədris müəssisələrində gənclərimizin asudə vaxtlarında kənd təsərrüfatı işlərinə güclü maraq yaratmalıyıq. Bu gün gənclərimizi mobil telefon oynadan əllərlə yox, zəhmətlə yoğrulmuş əllərlə görmək istəyirik. Sosial şəbəkələrdə boş və mənasız zaman keçirən gənclərimizə torpağı sevdirməyi, onlara əkib-becərmək kimi mühüm keyfiyyətlər aşılamalıyıq. Hər bir müəllim ixtisasından asılı olmayaraq, şagirdlərinə Vətənə məhəbbət, torpağa sevgi və onu qorumağın yolunun həm də əkib-becərməkdən keçdiyini aşılamağa borcludur. Vətəni qorumaq və vətənpərvər olmaq təkcə silah götürmək demək deyil ki... Elə yazımın əvvəlində qeyd etdiyim müdrik kəlamdakı kimi: torpağı qorumaqla yanaşı, həm də onu becərməlisən axı. Böyük şairimiz Məmməd Araz əbəs yerə deməyib ki, bu gün kərəntidən yapışmayanlar, sabah tüfəngdən də yapışmayacaq.

Torpaq deyəndə həmişə gözlərimin önündə fədakar bir qadın obrazı canlanır: Bahar Talıbova. Dözümlə fədakarlığın ahəngindən yoğrulmuş zirvələri fəth edən, torpaqla ucalan Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbova müsahibələrinin birində ötən əsrin 90-cı illərinin əvvəllərinin dağıdıcılıq prosesi nəticəsində torpaqdan aralı düşən gənclərə tövsiyə edirdi ki, torpaq min illər boyu olduğu kimi, yenə də hamımızın ruzi mənbəyi olmalıdır. Gənclərimiz başa düşməlidir ki, torpağı əkmiriksə, onda onu qorumağın da faydası yoxdur. Və əlavə edirdi ki, məni torpaq böyütdü. Torpaq şöhrətləndirdi. Mən torpağa əyilmişəm, torpaq da mənə güc-qüvvət verib. Torpağın özü qaradır, lakin o, üz ağardır.

*Torpaq zəhmət, özünə sevgi tələb edir. Əziz gənclərimiz, torpaq Vətəndir. Ona can gətirin, əkin, biçin, qoy sizdən razı qalsın. Unutmayın ki, zəhmət bataqlıqda da gül bitirər!!!*

**Sara ƏZİMOVA**
***jurnalist***

# İstehlakçıların hüquq və mənafelərinin qorunması diqqət mərkəzində saxlanılır

***İstehlakçı hüquqlarının qorunması Azərbaycan dövlətinin prioritet vəzifələrindəndir. Hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. Bu gün Azərbaycanda daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir. Bu gün istehlakçıların hüquqlarının müdafiəsini nəzərdə tutan ayrı-ayrı dövlət proqramlarının, qanunların, qərar və qaydaların muxtar respublikanın aidiyyəti orqanları tərəfindən icrası diqqət mərkəzində saxlanılır.***

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri mal və xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin dünya standartları səviyyəsinə çatdırılması, onların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsidir. Bu məqsədlə istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin olunması, ticarət norma və qaydalarına əməl edilməsi, istehlak bazarının keyfiyyətsiz və saxta mallardan qorunması, istehlakçıların hüquqlarının etibarlı müdafiəsi və digər bu kimi məsələlər qarşıya qoyulan mühüm vəzifələrdəndir.

Bu vəzifələrin icrası istiqamətində əvvəlki illərdə olduğu kimi, cari ildə də İqtisadiyyat Nazirliyi tərəfindən haqsız rəqabətin, keyfiyyətsiz mal satışının qarşısının alınması, istehlakçı hüquqlarının qorunması, həmçinin təbliğat-təşviqat və maarifləndirmə işləri davam etdirilib.

Bu ilin ötən dövrü ərzində keyfiyyətə dövlət nəzarəti istiqamətində həyata keçirilən tədbirlərə diqqət yetirsək, bu sahədə görülən işlərin əhəmiyyəti haqda dolğun təsəvvür yaranar. Belə ki, qeyd olunan məsələlərlə bağlı verilən tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə ərzaq və qeyri-ərzaq məhsullarının satışı obyektlərində monitorinqlər aparılıb, ümumi dəyəri 6250 manat olan istehlak müddəti bitmiş məhsullar ticarət dövriyyəsindən çıxarılıb.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının və antiinhisar qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasıdır. Daxili bazarda süni qiymət artımına səbəb ola biləcək halların qarşısının alınması məqsədilə 382 növdə yerli istehsal, 2728 növdə idxal mənşəli əsas istehlak mallarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılıb, məhsulların qiymətlərində müşahidə olunan artım səbəbləri araşdırılıb və əvvəlki səviyyədə saxlanılmasına nail olunub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən istehlak bazarında satışda olan ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət ilə bağlı lazımi tədbirlər görülür. Bu məqsədlə 2017-ci ilin ötən dövrü ərzində 266 halda idxal, 589 halda yerli istehsal mallarından nümunələr götürülərək "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin laboratoriyasında təhlil edilib. Aparılmış analizlərin nəticələrinə əsasən, 7 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab vermədiyi müəyyən edilib. Keyfiyyət göstəriciləri normativ-texniki sənədlərin tələblərinə cavab verməyən məhsulların istehsalçısı və idxalçısı barədə qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

İstehlakçıların hüquqlarının qorunmasında inzibati tədbirlərlə yanaşı, istehlakçıların və sahibkarların maarifləndirilməsi çox böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən müxtəlif konfransların və seminarların keçirilməsi, kütləvi informasiya vasitələrində istehlakçı hüquqları ilə bağlı xüsusi verilişlərin hazırlanması, videoçarxların yayımlanması təmin edilib.

Eyni zamanda ticarət və ictimai iaşə obyektlərində çalışan xidmət personalının təlimatlandırılması və digər tədbirlərin həyata keçirilməsi məqsədilə 56 iaşə, 6 mehmanxana obyektində, o cümlədən 92 təhsil müəssisəsində fəaliyyət göstərən iaşə obyektlərində maarifləndirici monitorinqlər aparılıb, aşkar olunan nöqsanların qısa müddətdə aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verilib.

İstehlak bazarında çatışmazlıqların aradan qaldırılması üçün inzibati tədbirlərin gücləndirilməsi ilə yanaşı, təbliğat-təşviqat və maarifləndirmə işləri bundan sonra da davam etdiriləcək. İstehlakçıları isə hüquqlarının müdafiəsində fəal olmağa, üzləşdikləri problemlərin aradan qaldırılmasında aidiyyəti qurumlarla əməkdaşlıq etməyə, özlərinin sağlamlığını qorumaq üçün malların keyfiyyət və təhlükəsizlik məsələlərinə diqqət yetirməyə dəvət edirik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Vətəndaş və sənətkar ömrünün harmoniyası

***Doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı mədəniyyət, sənət, ədəbiyyat beşiyi kimi dünya sivilizasiyasına onlarla qüdrətli sənətkarlar bəxş edib. Naxçıvan deyəndə fikrimizdə əzəmətli, minilliklərdən səs-soraq verən abidələri, sərt qayaları, yaşıl bağları, saf bulaqları, coşqun Arazı canlanır. Bu möhtəşəm diyarda yetişən, formalaşan yaradıcı insanlar, onların həyat və fəaliyyəti Azərbaycan mədəniyyəti tarixində silinməz izlər qoyub. Musiqi mədəniyyətimizin inkişaf tarixində bir çox incəsənət xadimlərinin danılmaz xidmətləri olub. Belə fədakar insanlardan biri də Səidə Məmmədovadır.***



Səidə xanım 1942-ci ildə, ilin ən gözəl fəslinin ən gözəl ayında – mayın 25-də Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1960-cı ildə Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbini bitirdikdən sonra Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun Xor-dirijorluq şöbəsinə daxil olub. 1964-cü ildə texnikumu uğurla bitirən Səidə Məmmədova elə həmin ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında həmin ixtisas üzrə təhsilini davam etdirib. 1969-cu ildə konservatoriyanı bitirərək təyinatla Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbində müəllim kimi fəaliyyətə başlayıb. Hələ konservatoriyada oxuduğu illərdə istedadı və bacarığı ilə seçilən, yüksək idarəçilik qabiliyyətinə malik olan Səidə xanım bir neçə il Bakı şəhərindəki Nərimanov rayonunun Mədəniyyət Sarayının bədii rəhbəri olub, eyni zamanda fortepiano ixtisası üzrə müəllim işləyib.

1969-cu ildən 1975-ci ilədək Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində fortepiano müəllimi və xormeyster kimi çalışan Səidə Məmmədova 1975-ci ildə yenicə yaradılmış Naxçıvan Orta İxtisas Musiqi Məktəbinin müdiri vəzifəsinə təyin olunub. İlk təşkilatçısı Səidə Məmmədova olan bu məktəb qısa zamanda respublikada tanınan əsl sənət ocağına çevrilib. O, öz ciddiliyi, tələbkarlığı ilə məktəbdə tәlim-tərbiyə işlərinin yüksək səviyyədə olmasını, burada müxtəlif musiqi kollektivlərinin formalaşmasını, onların muxtar respublika səviyyəli tədbirlərdə və konsertlərdə iştirakını təmin edərək özünü doğruldub, 1983-cü ilədək daşıdığı vəzifənin öhdəsindən layiqincə gəlib. Qeyd edək ki, bu məktəbin yetirmələri bu gün də Naxçıvanda milli musiqinin, mədəniyyətin inkişafı naminə səylə fəaliyyət göstərirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Səidə Məmmədova yüksək təşkilatçılıq qabiliyyətinə malik bir musiqiçi olaraq bir sıra tədbirlərin konsert proqramlarının təşkilində, müxtəlif musiqi kollektivlərinin yaradılmasında böyük rol oynayıb. Səidə xanım 1974-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan MSSR-in 50 illik yubileyinə həsr edilmiş təntənəli yığıncağın bədii hissəsində Naxçıvan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin ifasında Cahangir Cahangirovun Naxçıvan haqqında kantatasına böyük məharətlə dirijorluq edib. Sənət fədaisi olan gənc qız 1973-cü ildə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin, 1974-cü ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunub. 1978-ci ildə Azərbaycan KP MK-nın və Azərbaycan Respublikası Ali Sovetinin təşkil etdiyi bayram konsertində bəstəkar Ramiz Mirişlinin Fikrət Qocanın sözlərinə yazdığı "Naxçıvan təranələri" süitasının Səidə xanımın dirijorluğu ilə təqdimatı ozamankı nəslin yaddaşında bu gün də əsl incəsənət hadisəsi kimi yaşayır.

1987-ci ildə Azərbaycan KP-nin və Azərbaycan SSR Ali Sovetinin Oktyabr inqilabının 70 illiyinə həsr olunmuş təntənəli yığıncaq ilə əlaqədar keçirilən konsert zamanı Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijorluq pultu arxasında respublikanın ən məşhur dirijorlarını görməyə adət etmiş bir çoxları üçün Səidə Məmmədovanın çıxışı təəccüb doğurub. Çoxları təklif edib ki, konsert fonoqram ilə baş tutsun. Lakin onun dirijorluq məharəti, orkestri ələ almaq bacarığı konsertin çox yüksək səviyyədə sona çatması ilə nəticələnib. Bu gənc xanım öz əzmkarlığı, qeyri-adi yaradıcılıq enerjisi ilə milli musiqi salnaməsinə Azərbaycan Dövlət Simfonik Orkestrinin yüksək tərkibli heyətinə rəhbərlik edən ilk qadın dirijor kimi düşüb.

O zamanlar Naxçıvanda da keçirilən bir çox dövlət konsertlərinin bədii rəhbəri olan Səidə Məmmədova bütün əsərləri yüksək səviyyədə musiqi ictimaiyyətinə təqdim edib. Səidə Məmmədova həmin illəri xatırlayaraq qeyd edir ki, xor kollektivini, orkestri təşkil etmək olduqca çətin idi, çünki ixtisaslı musiqiçilər azlıq təşkil edirdi: "O zaman özfəaliyyət kollektivlərinin üzvlərindən, müxtəlif rayon və kəndlərdən ən istedadlı musiqiçiləri toplayıb bu kollektivləri ərsəyə gətirdik. Ancaq çox çətin idi. İfaçıların çoxu notu belə, tanımırdı. Bu səbəbdən onlara əsərləri zümzümə edərək öyrədirdim".

Yüksək peşəkarlığı və idarəetmə qabiliyyəti ilə seçilən Səidə Məmmədova 1996-cı ildə Naxçıvan Dövlət Universitetində yaradılan İfaçılıq kafedrasına müdir vəzifəsinə təyin olunub. Səidə xanım bu gün gənclərin peşəkar, yüksək mədəni səviyyəyə malik musiqiçilər kimi yetişməsində səylərini əsirgəmir. 1997-ci ildə Naxçıvan Dövlət Universitetinin yaranmasının 30 illiyi münasibətilə keçirilən dövlət tədbirindən sonra bədii hissədə konsertin yüksək səviyyədə baş tutmasında bədii rəhbər və dirijor Səidə müəllimənin öz payı olub. Tələbə xorunun, rəqs qrupunun və xalq çalğı alətləri orkestrinin birgə hazırladığı Ramiz Mirişlinin "Doğma diyar" süitası qədim Naxçıvanımızın musiqi salnaməsi kimi ictimaiyyət tərəfindən alqışlarla qarşılanıb.

1999-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi münasibətilə keçirilən yubiley tədbirində isə Səidə xanım dahi Üzeyir bəyin Azərbaycanın şanlı qəhrəmanlıq tarixindən bəhs edən "Koroğlu" operasından "Çənlibel xoru" kimi qiymətli sənət töhfəsi ilə iştirak edib. Naxçıvan musiqi mədəniyyətinin inkişafı üçün əlindən gələni əsirgəməyən Səidə Məmmədova Naxçıvan Dövlət Universitetində fəaliyyəti dövründə də bir çox uğurlara, yeniliklərə imza atıb. Belə ki, 2000-ci ildə universitetin rektoru, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə ictimai əsaslarla müəllim və tələbələrdən ibarət opera studiyası yaradılıb, bu studiyaya rəhbərlik də məhz Səidə Məmmədovaya tapşırılıb. Opera studiyasında səhnələşdirilən, 2001-ci il iyun ayının 15-də Milli Qurtuluş Günü münasibətilə keçirilən dövlət tədbirində təqdim olunan dahi Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasından 2 pərdə böyük əks-səda doğurub. 2004-cü il iyunun 30-da Səidə Məmmədovanın rəhbərliyi ilə Üzeyir Hacıbəyovun daha bir əsərinə müraciət edən opera studiyasının əməkdaşları bu dəfə "Arşın mal alan" musiqili komediyası ilə Türkiyənin bir çox universitetlərində çıxış ediblər, onların çıxışı alqışlarla qarşılanıb. 2007-ci ilin iyununda Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi ilə əlaqədar Rusiyanın Novosibirsk şəhərində keçirilən "Naxçıvan Dövlət Universiteti həftəsi"ndə təqdim olunan bu əsər sibirlilərin və uzaq Sibirdə yaşayan həmvətənlərimizin xatirəsinə həmişəlik həkk olub.

Akademik Budaq Budaqov 2004-cü ildə akademik İsa Həbibbəyliyə yazdığı məktubda belə qeyd edir: "2004-cü ilin sentyabr ayının 22-də sizin rəhbərlik etdiyiniz universitetin opera studiyasının ifasında "Arşın mal alan" operettasına baxdığım tamaşadan böyük mənəvi zövq almışam. Tələbələrin çıxışı 1945-ci ildə "Arşın mal alan" filmində oynamış dahi artistlərin ustalıq manerаlarından fraqmentləri xatırladır. Çalğıçıların ifasındakı koordinasiya diqqətəlayiqdir. Operettanın dirijorunda – Səidə xanım Məmmədovada olan şuxluq, dirijorluq məharəti və enerjisi çıxış zamanı hər bir artistə və musiqiçiyə paylanırdı. Öz sənətinin aşiqi olan mütəxəssislər bu temperamentdə, bu həvəsdə dirijorluq edə bilərlər. Bütün tamaşanın enerji qütbü dirijorda cəmləşmişdir".

2007-ci ildə Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə dövlət səviyyəsində qeyd olunub. Konservatoriyanın yeni binasının açılışına təsadüf edən, Səidə xanımın bədii rəhbər və dirijoru olduğu yubiley konserti həm əhəmiyyətli mədəniyyət hadisəsi, həm də hesabat kimi universitetə uğur gətirib.

Səidə Məmmədova elmi-metodik səviyyəsi, pedaqoq səriştəliliyi, elm sahəsində müvəffəqiyyətləri ilə Naxçıvanın fortepiano ixtisası üzrə ilk professoru adını qazanıb. Onun sənəti, istedadı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, müxtəlif fəxri fərmanlarla təltif olunub. Səidə xanım 1977-ci ildə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Əməkdar incəsənət xadimi", 1988-ci ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" fəxri adları, 2007-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif olunub. 2007-ci ilin may ayında isə Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdünə layiq görülüb.

Böyük ürəyə, həssas qəlbə malik olan Səidə Məmmədovanın özünəməxsus zərif dünyasını, incə, həyatsevər qəlbinin lirik duyğularını yaşadan və sevdirən bəstələri də az deyil. Onun "Sevirəm yurdumu", "Ürəkdir sevən səni", "Ülkərim", "Ayrılıq", "Könlümdəsən həmişə", "Görüş", "Nigarım mənim", "O kaman səsi", "Naxçıvan" və başqa mahnıları könülləri oxşayır. Səidə xanım xor üçün bir neçə mahnını, Saray Şəkərlinin "Bilsəydim ki", "Nazlı dilbər"i və digərlərini işləyib hazırlayıb.

*Gözəl insan, tanınmış dirijor, pedaqoq, fəal ictimai xadim olan Səidə Məmmədova ömrünün 75-ci baharını yaşayır. Əslində, Səidə xanımın gözəl qamətinə, nurlu simasına nəzər saldıqda onun bu yaşda olduğuna inanmaq olmur. Ancaq buna inanırıq ki, tükənməz sənət eşqi, həyatsevərliyi, yetirmələrinin sənət uğurları, dövlətimizin əsl sənətə və sənətkara verdiyi qiymət bundan sonra da Səidə xanımın mənalı ömrünə ömür qatacaq.*

**Günay MƏMMƏDOVA**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***



## Qədim Naxçıvanın daş yaddaşı

### *Abidələrimiz barədə düşüncələr*

*Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyəti, tarixi abidələridir. Naxçıvan ərazisində qədim Daş dövründən başlayaraq məskunlaşan insanlar burada zəngin mədəniyyət yaradıblar.*

Qədim diyarın hər addımında ilk insanların yaşadıqları mağaralara, yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, qayaüstü təsvirlərə, daş qoç heykəllərə, türbələrə, bir sözlə, nadir maddi-mədəniyyət nümunələrinə rast gəlmək mümkündür. Yaşı, yaranma tarixi min illərlə ölçülən Qazma, Əshabi-Kəhf, Daş qala və Kilit mağaraları Daş dövrü mədəniyyəti qalıqlarını bu gün də yaşatmaqdadır. Nuhun yadigarı olan Gəmiqayadakı qayaüstü rəsmlər eradan əvvəl IV-I minilliklərdə xalqımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır.

Dağların ucalığından, məğrurluğundan qidalanan Araz çayı boyunca irəlilədikcə bu yurdda ucaldılan saysız-hesabsız möhtəşəm abidələrin şahidi olursan. XII əsrdə böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin Atabəy Eldənizin xanımı Möminə xatının şərəfinə ucaltdığı türbə Şərq memarlığı tarixində qızıl səhifədir. Yüz illər boyunca bu qızıl səhifə səyyahları, salnaməçiləri, Monpere, Fren, Yakobstal kimi məşhur memar və şərqşünasları düşündürüb. Möminə xatın həm də qadın, ana adının ucalığında dayanan zərif bir məhəbbət əfsanəsi, sevgi dastanıdır. Ona görə də akademik Alpatov "Ümumdünya incəsənəti tarixi" adlı monoqrafiyasında Möminə xatın türbəsini monumentallıqla zərifliyin möcüzəsi adlandırıb və memarlıq tarixində tutduğu mövqeyi yüksək qiymətləndirərək yazıb: "Belə qeyri-adi memarlıq duyğusuna, kompozisiyasının klassik kamilliyinə və işlənməsinə görə XII əsrdə Avropada belə abidəyə təsadüf etmək mümkün deyil. Naxçıvan türbəsindən klassik Şərq ədəbiyyatının ən yaxşı əsərləri, Firdovsinin "Şahnamə" epopeyasında, Nizaminin "Leyli və Məcnun" poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir".

Möminə xatın türbəsində əks olunan Əcəmi sənətkarlığından danışan tədqiqatçılar həmişə Nizamini xatırlayıb, "Xəmsə" ucalığına üz tutublar. Yazıçı-publisist, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Sadıq Elcanlı "Arazboyu abidələr – yaddaşımızın heykəlləri" məqaləsində yazır: "Dahi Nizaminin sözlə yaratdığını Əcəmi daşlarda yaradıb. Nizaminin söz duyğusu ilə Əcəminin daş duyğusu XII yüzillikdə torpaqlarımızda, qəlbimizdə elə pöhrələyib, elə yüksəlib ki, dünyanın hər tərəfindən görünüb, seçilib".

Qədim köklərə, ulu qaynaqlara malik Naxçıvan memarlıq məktəbi XII əsrdə inkişaf edərək əsl sənət zirvəsinə ucalıb. Bu dövrdə yaradılan xatirə-memorial səciyyəli abidələr monumental biçimi, zəngin həndəsi naxışlar sistemi, simvolik kompozisiya bütövlüyü ilə seçilir. Riyazi dəqiqliyi, poetik ahəngdarlığı, mifik-fantastik obrazlılığı, heyrət doğuran naxışlar kompozisiyasının tamamlanmasında memar fikrinin açılması mühüm rol oynayır. Əcəmi qüdrətinin bəhrəsi olan Yusif Küseyiroğlu, Xaraba Gilan türbələri, Naxçıvan Cümə məscidi, eləcə də başqa abidələr də belə yüksək sənətkarlıq məziyyətləri ilə seçilir, memarlıq tarixində yeni bir yolun formalaşmasından, yüksək sənət zirvələri fəth edilməsindən xəbər verir. Qədim qala divarları, daş sədlər, bürclər, səmanın qəlbini dələn minarələr xalqımızın əyilməz vüqarı kimi yüksəlir.

Naxçıvan şəhərində təkcə müdafiə məqsədilə deyil, həm də bu tarixi ərazidə formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilən Naxçıvanqala bu gün əsaslı təmir olunub və qala divarları sanki bir əsgər kimi bu yurdun keşiyini çəkir. Dil açıb uzaq-uzaq tarixdən söz salıb, yurdumuzun şərəfli keçmişindən danışır.

Əlincəçayın sahilində ucalan, 14 il qüdrətli Teymur qoşunlarına əyilməyən Babək inadlı məğrur Əlincə qalası, Əlincə çayının sahilində orta əsrlər abidəsi olan Xanəgah türbəsi ilə ürək söhbətinə daldıqca qəlbimizdə həzin duyğular baş qaldırır. Hürufilik təriqətinin banisi Fəzlullah Nəiminin əsarətə və cəhalətə qarşı üsyan səsi eşidilir.

XIII yüzilliyin əvvəllərində Culfa yaxınlığında ucaldılan Gülüstan türbəsi xüsusilə diqqət çəkir. Əcəmi ənənələrini davam etdirən bu nadir sənət incisi naxış kompozisiyasının kamilliyi, özünəməxsusluğu ilə heyrət doğurur.

Orta əsrlər Azərbaycan tarixinin əvəzsiz yadigarı olan Qarabağlar türbəsi memarlığımızda yeni nəfəsdir. Bu orijinal sənət əsəri kompozisiya dinamikliyi, monomentallığı, işıqlı və zərif naxışları, dekorativliyə ciddi meyli ilə sənətşünasları həmişə düşündürüb. Nəsimi dövründün daş kitabəsi olan türbə göz önündə vərəqləndikcə ötənlərdən-keçənlərdən danışır, yaddaşımızda sirli xatirələr oyadır.

Naxçıvana kimin ayağı dəyirsə ilk ifadələri bu olur: Yurdunuz memarlıq muzeyidir. Türbələr, məscidlər, Əlincə qüdrətli qalalar. Xudafərin ümidli körpülər, XII-XIV əsrləri əhatə edən qədim buxanalar, karvansaralar... Yaddaşımızın heykəlləri olan bu abidələrlə göz-gözə dayananda miniatür qəlbli, xalça duyğulu naxışlarına, rənglərinə baxanda yüz illərin, min illərin xatirəsinə dalırsan.

Naxçıvan şəhərindən, təqribən, 12 kilometr aralı, "Qurani-Kərim"də adı çəkilən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi xalqın qəlbindən, inancından güc alıb. Bu yer yüz illər boyunca insanlara kömək olub, yolçulara sinəsindən yol verib.

Ümumiyyətlə, muxtar respublikada Sədərəkdən Ordubada doğru irəlilədikcə çoxsaylı abidələrlə tanış olursan. Bu sənət incilərinin hər biri bir salnamə, çalınan cəngi kimi məğrur, muğam kimi düşüncəli abidələrdir. Yurdumuzun daş yaddaşı, sevgimizin, duyğumuzun daş heykəlləridir. Bu abidələr min illər boyunca torpağımızdan, qəlbimizdən boy verib ucalıb. Sevgimizin heykəli olub. Taleyimizə yazılan nəğmələr kimi oxunub və bu gün də oxunmaqdadır.

**Vaqif AĞALAROV**

# Naxçıvan ölkəmizin alınmaz qalası, parlayan ulduzudur

*Naxçıvan özünün zəngin mədəniyyəti, incəsənət ənənələri, istedadlı insanları ilə tanınan bir diyardır. Bu diyarın gözəlliyi haqqında şeirlər yazılıb, mahnılar bəstələnib, burada çəkilən rəsm əsərləri hər kəsi valeh edib. Təsadüfi deyil ki, Xalq rəssamı Səttar Bəhlulzadə Naxçıvan haqqında "Bu ulu torpaq canlı təbiət muzeyidir", – demişdir. Bu gün Naxçıvanın səsini, sorağını eşidən insanlar böyük həvəslə bura gəlir, qədim yurd yerimiz haqqında ürəkdolusu danışırlar.*



Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin birinci vitse-prezidenti, Sabitlik və İnkişaf Mərkəzinin sədri Rasim Məmmədov bu günlərdə muxtar respublikamıza gəlib. O, öz təəssüratlarını bizimlə belə bölüşdü:

– Naxçıvan haqqında danışmaq hər bir azərbaycanlı üçün şərəfdir. Çünki bu diyar ölkəmizin alınmaz qalası, parlayan ulduzudur. Naxçıvan gündən-günə gözəlləşir. Mən 6 ay bundan əvvəl müqəddəs Əshabi-Kəhfi ziyarət etmək üçün qədim diyara gəlmişdim. İnanın ki, 6 ay sonra mən Naxçıvanı fərqli görkəmdə görürəm. Bunun səbəbi Naxçıvanda yaradılan yeni infrastruktur, tikilən binalar, çəkilən yeni yollardır. İstənilən halda muxtar respublika aybaay deyil, günbəgün daha da gözəlləşir.

Mən bura gələndən sonra bir daha əmin oldum ki, Naxçıvan bir çox cəhətdən, o cümlədən qonaqpərvərlikdə də nümunədir. Bu diyarın təbii gözəllikləri qarşısında söz aciz qalır. Bu gün muxtar respublikanın kəskin iqlim şəraitinə baxmayaraq, aparılan yaşıllıq işləri öz bəhrəsini verir. Bir vaxtlar məlum səbəblərdən kəsilən ağacların yerində bu gün yüzlərlə ting əkilir. Muxtar respublika inkişaf edir, burada olan nizam-intizam, qayda-qanun cəmiyyətin də inkişafından xəbər verir.

Şərur rayonunun Arbatan kəndində oldum. Məndə elə təəssürat yarandı ki, bura kənd deyil, şəhərdir. Kəndin yolları, yaradılan səliqə-sahman, evlərin sıra ilə düzülüşü və oradakı insanların həvəslə evlərinin önündə abadlıq işləri aparması, hər kəsin təsərrüfatla məşğul olması bizə imkan verir ki, ürəkdən deyək: Naxçıvan Azərbaycanın fəxr ediləsi bir guşəsidir.

Hər birimiz fəxarət, qürur duyuruq ki, Naxçıvan torpağı Azərbaycan xalqına, ümumiyyətlə, bəşəriyyətə dahilər bəxş edən bir diyardır. Müstəqil Azərbaycanın qurucusu və memarı ulu öndərimiz Heydər Əliyev, dahi şairimiz Hüseyn Cavid, böyük ədibimiz Cəlil Məmmədquluzadə, akademik Yusif Məmmədəliyev, görkəmli qələm ustası Məmməd Səid Ordubadi və başqaları bu gün hər bir azərbaycanlının qəlbində yaşayırlar. Bəli, Naxçıvan həmişə elm və mədəniyyət beşiyi olub. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması doğma yurdumuzun tarixiliyindən və bugünkü inkişaf səviyyəsinin hər kəsin diqqətini çəkməsindən xəbər verir.

*– Rasim müəllim, qeyd etdiyiniz kimi, Naxçıvan 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Bu, ölkəmizə və muxtar respublikamıza nə vəd edir?*

– Bu, mədəniyyət tariximizin mühüm hadisəsidir. Gələn il İslam ölkələrindən muxtar respublikaya çoxsaylı rəsmi və qeyri-rəsmi şəxslər gələcək. Mən əminəm ki, Naxçıvanda yaradılan möhtəşəm infrastruktur bura gələn hər bir qonaqda xoş təəssürat yaradacaq. Muxtar respublikanın ecazkar təbiəti, Naxçıvan mətbəxi, qonaqpərvərlik, burada formalaşan böyük mədəniyyət, mövcud tarixi abidələr bu diyarın turizm potensialının təbliği üçün şərait yaradacaq. 25 illik blokada vəziyyətində olan Naxçıvanda əldə edilən bu inkişaf həm də ölkəmizin qüdrətinin göstəricisi kimi qonaqların diqqətini cəlb edəcəkdir.

Bilirsiniz ki, Qərbdə islamofobiya, ksenofobiya meyilləri ötən hər gün güclənir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun islami dəyərlərə hörmətlə yanaşması, ölkəmizin həyata keçirdiyi siyasət böhtanlara tutarlı cavabdır. İslam ölkəsi olan Azərbaycan multikulturalizmin, tolerantlığın mövcud olduğu nadir diyarlardan biridir. Biz həm İslam dinini yaşadırıq, milli və mənəvi dəyərlərimizi qoruyuruq, həm də başqa dinlərə mənsub olan xalqlara, millətlərə böyük hörmət bəsləyirik. 2018-ci ildə Naxçıvana gələcək çoxsaylı qonaqlar bunun bir daha şahidi olacaqlar.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə "Qurani-Kərim"də adı vurğulanan Əshabi-Kəhf ziyarətgahının, Nuh Peyğəmbərin qəbirüstü türbəsinin, Naxçıvandakı məscid və imamzadələrin bərpa edilməsi bir daha sübut edir ki, biz dinimizi, dövlətimizi sevirik.

*– Müsahibə üçün sağ olun.*

**Adilə SƏFƏROVA**

# Dadı və tamı ilə seçilən *Naxçıvan göycəsi*

***Sevilən qidaların hamısı zərərlidir deyə, bir qanun yoxdur. Faydalı olduğu halda insanlar tərəfindən sevilərək yeyilən qidalar sırasında ilk yerdə meyvələr durur. Xüsusilə də mövsüm etibarilə ilk yetişən meyvə olan göycə. Naxçıvanın brendinə çevrilmiş bu meyvəni sevməyən, zənnimcə, yoxdur. Həyatında göycə ağacı olanlar onu budağından qoparıb yeyəcək, olmayanlara dost-tanışdan pay gələcək, o da olmasa, bir neçə manatından keçib gedib bazardan alacaq. Hər nə cür olursa-olsun, insanlar onu dadacaq.***



Çox uzağa getmədən bir misal çəkəcəyəm. Ali məktəbin I kursunda oxuyurdum. Qrup yoldaşlarımın çoxu şəhərdən olduğundan göycə yetişən vaxtı sinifdə söhbət düşdü ki, bəs kimin həyətində göycə ağacı varsa, bir gün gedək onlara göycə yeməyə. Sağ olsun Babək rayonundan olan Vüsalə adlı bir qız, ürəkli çıxaraq bizi evlərinə dəvət etdi. Etmədik tənbəllik, 42 nəfər tələbə yol aldıq Babək rayonuna. Çox da razı qayıtdıq. Artıq üçüncü ildir ki, göycə mövsümündə ünvanımız bəllidir: Babək qəsəbəsində Əsgərovların həyəti.

İndi isə keçək naxçıvanlıların sevimli meyvəsi olan göycə barədə məlumatlanmağa. Görək onun adından, rəngindən, dadından başqa haqqında nə bilirik? Göycə Naxçıvanın ən sevilən, nübar meyvələrindən biridir. Ona görə ki, ta qədimdən göycə yalnız bu regionda becərilib. Naxçıvan göycəsinin tarixi VII əsrə gedib çıxır. "Göycə" sözü göyümtül-yaşıl mənasında olmaqla bərabər, "yeni", "təzə" mənasını da ifadə edir. Mövzu ilə əlaqədar Nehrəm kənd sakini, bağban Tofiq Abutalıbov ilə həmsöhbət oluruq:

– Göycə müxtəlif alça sortlarının bağbanlarımız tərəfindən calaq edilməsi yolu ilə əmələ gəlib. Belə ki, insanlar əvvəlcə alça ağacını əkir, sonra göycənin budağından ona calaq vururlar. İkinci, yaxud da üçüncü il artıq göycə ağacı bar verir. Calaq üçün də xüsusi vaxt var. Dədə-babalarımız deyərdi ki, arpa biçini zamanı calaq etməyin əsl vaxtıdır. Göycənin calağı, əsasən, alça və almaxara ağaclarına vurulur. Təcrübələr əsasında demək olar ki, bu ağaclar vurulan calaqdan sonra yaxşı bar verir. Həm də həmin ağacların kökaltı hissələri yaxşı inkişaf etdiyindən gec quruyur, xəstəliklərə davamlı olur.

Yağışlı havalarda tozlanma yaxşı getmədiyindən ağacları zərərvericilər məhv edə bilər. Buna görə də erkən yazda və çiçəklənmədən sonrakı dövrdə ağacları dərmanlamaq lazımdır. Məhsul verməyə bir ay qalmış dərmanlama dayandırılır ki, kimyəvi tərkib ağacın meyvəsinə təsir göstərməsin. Ağacları çiçəkləmə vaxtında da dərmanlamaq olmaz.

Bütün ağaclar kimi, göycə ağacının da mineral maddələrə, üzvi gübrələrə ehtiyacı var. Lakin ağaca gübrə verilən zaman da diqqətli olmaq lazımdır. Gübrə mütləq çiçəklənmədən əvvəl verilməlidir.

Bütün ağaclara xas bir hal var ki, ağacın orta məsafəsi kasa kimi boş qalmalıdır. Bu, yaxşı havalanma üçündür. Buna görə də erkən yazda göycə ağacı budanmalıdır. Onun üst təpə tumurcuqları təmizlənməsə məhsulu az olar.

Göycə ilk yetişən meyvə olduğundan çox alındığına hamımız şahid olmuşuq. Bir neçə dəfə göycə satışı həyata keçirilən mağazalarda alıcı ilə satıcı arasındakı mübahisəni kənardan müşahidə etmişəm. Alıcı deyir ki, bu, bir o qədər də şirin deyil, bu, göycə deyil, alçadır. Satıcı da and-aman edir: "Nə alça? Bu, göycədir". Görəsən, hansı haqlıdır? Bu sualı da həmsöhbətimizə ünvanladıq və görün necə cavab aldıq:

– Göycə alçadan tez yetişir. Yəni göycə satışa çıxarıldığı vaxt alçalar çox balaca və acı olur. Alçanı, adətən, göy ikən deyil, yetişəndən sonra yığıb istifadə edirlər. Göycə ilə bir fərqi də elə budur. Göycə, yəni göy ikən gəl qopar məni. Qısaca, görünüş etibarilə göycə ilə alça səhv salınsa da, faktiki olaraq bunlar ayrı-ayrı meyvələrdir. Lakin göycələrin turşu da var, şirini də. Əgər göycənin calağı şirin alçaya vurularsa, göycə şirin, yox, əgər keyfiyyətsiz, xalq diliylə desək, cır alçaya vurularsa, məhsul turş olar. Ağaca yaxşı qulluq edilsə, vaxtlı-vaxtında mineral maddələrlə təmin edilsə, bu, onun məhsulunun keyfiyyətini yüksəldəcəkdir. Ağaca verilən suyun da onun məhsuluna bilavasitə təsiri var. Belə ki, şirin su ilə suvarılan ağacın meyvəsi ilə şor su ilə suvarılan ağacın meyvəsi arasında, əlbəttə ki, fərq olacaqdır.

Tofiq Abutalıbovun dediyinə görə, Nehrəm kəndində 6 sahibkar fərdi təsərrüfatında göycə yetişdirir, yetişdirdikləri məhsulun satışı ilə gəlir əldə edirlər.

Qəmbər Bağırov da həmin fərdi təsərrüfatla məşğul olanlardan biridir. O deyir ki, bütün ağaclar kimi, göycə ağacına da qayğı lazımdır. Əgər yaxşı məhsul istəyirsənsə, yaxşı da qulluq etməlisən. Vaxtlı-vaxtında onu budamalı, dərmanlamalı, mineral gübrələrini verməli, suvarmalısan. Keçən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Göycə" festivalında iştirak edən Qəmbər əmi bu il də keçiriləcək festivalda bol məhsulla yer alacağını bildirdi.

İndi isə keçək göycənin orqanizmimiz üçün faydalarına. Xalq arasında o, ilk növbədə, iştahaçıcı kimi tanınır. Hələ zamanında nənələrimiz yemək yeməyən 3-4 yaşdan yuxarı uşaqların iştahasını açmaq üçün mövsüm vaxtı onlara gündə 1-2 göycə yedirərdilər. C vitamini ilə zəngin olan göycə təzə qan yaradır, hipertoniya, qanazlığı olanlara çox faydalıdır. O, eləcə də susuzluğu tez yatıran vasitə hesab edilir, stresə qarşı qoruyucudur və sakitləşdirici bir təsiri var, ağız sağlamlığı üçün, xüsusilə diş ətlərinin güclənməsinə kömək edir.

Qədim Naxçıvan zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də dünyada tanınır. Naxçıvana məxsus meyvə sortlarının istehsalının artırılması ilə yanaşı, onların təbliği və tanıdılması da diqqət mərkəzində saxlanılır, bu sahədə lazımi tədbirlər görülür. Bunun göstəricilərindən biri keçən il mayın 27-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilmiş "Göycə" festivalıdır. Festivala Naxçıvan şəhərindən, Şərur, Babək və Ordubad rayonlarından olan 70 torpaq mülkiyyətçisinin yetişdirdiyi müxtəlif növdə 3 tondan çox göycə çıxarılmışdı. Həmçinin festival iştirakçılarına göycədən hazırlanan məhsullar – mürəbbə, kompot, turşu, göycə qurusu, eləcə də göycə lavaşası təqdim olunmuşdu.

Qeyd edək ki, belə festivalların keçirilməsi ənənə halını almış bu qədim torpaqda iyun ayının 3-ü və 4-ü "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində ikinci "Göycə" festivalı keçiriləcəkdir. Şəhərimizin bütün sakinləri dəvətlidir!

✍ **Fatma BABAYEVA**

# Yekun hesabat konserti olub

Babək Rayon Uşaq Musiqi Məktəbinin 2016-2017-ci tədris ilinin ikinci yarımilinin yekun hesabat konserti olub. Konsertdən əvvəl Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ceyhun Fərəcov və məktəbin direktoru Zaur Kərimov çıxış edərək tədris ilinin ikinci yarımilinin uğurla başa çatmasından söhbət açıblar.

Yekun konsertində Babək Rayon Uşaq Musiqi Məktəbinin xalq çalğı alətləri orkestri, sazçalanlar, skripkaçalanlar, nağaraçalanlar ansamblları, xor kollektivi iştirak edib.

Bədii rəhbər və dirijoru Hakim Məmmədov olan xalq çalğı alətləri orkestrinin ifasında böyük bəstəkarlarımız Fikrət Əmirovun "Məhəbbət rəqsi", Müslüm Maqomayevin "Şah İsmayıl" operasından "Müqəddimə" maraqla qarşılanıb.

Sonra məktəbin sazçalanlar ansamblının ifasında "Gözəlləmə" aşıq havası, muğam sinfinin şagirdlərinin ifasında bəstəkar Cahangir Cahangirovun "Yenilməz batalyon" kinofilmi üçün yazdığı "Teymurun mahnısı" səsləndirilib. Skripkaçalanlar ansamblının ifasında isə Azərbaycan və Qərb bəstəkarlarının musiqisi ifa edilib.

Konsert dahi bəstəkarımız Qara Qarayevin "Böyük Xilaskar" musiqi əsərinin ifası ilə başa çatıb.

✍ **F. BABAYEVA**

# İdmançımız dünya kubokunun sahibidir

***Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən kikboksinqin lokinq versiyası üzrə dünya kuboku uğrunda yarışa yekun vurulub.***

Dörd gün davam edən yarışda 60 ölkədən 3 mindən çox idmançı mübarizə aparıb. Kikboksinq üzrə Azərbaycan millisi də yarışda iştirak edib. Millimizin heyətində Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi Ruslan Musayev 67 kiloqram çəki dərəcəsində rinqə çıxıb. İdmançımız yarımfinal mərhələsində ukraynalı idmançı Sabar Yaraslovu məğlub edərək finala yüksəlib. Final qarşılaşmasında isə Ruslan Musayev rəqibi bolqar Dimitar Pençev üzərində də qələbə qazanıb.

İdmançımıza təşkilatçılar tərəfindən kubok, medal, diplom və hədiyyələr təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Orucova Nazlı Ədalət qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş tələbə bileti və qiymət kitabçası itdiyindən etibarsız sayılır.

* * *

Tağıyev Mahir Əvəz oğlunun adına Babək Rayon Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş N-04791 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 436